

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 68 (23.480)

10 may 2020-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Mayın 9-da faşizm üzərində tarixi Qələbədən 75 il keçir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar.

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 123 nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

* * *

Rusiyanın nüfuzlu "Natsionalnaya oborona" ("Milli müdafiə") jurnalının may buraxılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsi dərc olunub. Qeyd edək ki, bu jurnal Rusiyada və beynəlxalq səviyyədə rəsmi dövlət qurumları, diplomatlar, siyasi, hərbi ekspertlər, tədqiqatçılar və digər mütəxəssislərdən ibarət geniş auditoriyaya malikdir.



## Naxçıvanda faşizm üzərində Qələbənin 75-ci ildönümü qeyd olunmuşdur





1941-1945-ci illər müharibəsində faşizm üzərində qazanılan tarixi Qələbənin 75-ci ildönümü Naxçıvan Muxtar Respublikasında qeyd olunmuşdur.

Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Xatirə Kompleksinə gələrək abidə önünə gül dəstəsi qoymuş, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsinə ehtiramını bildirmişdir.

Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr vermişdir. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salmış, onların, təxminən, yarısı döyüş meydanlarından geri qayıtmamışlar. Müharibə illərində göstərdikləri igidliyə görə 123 Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilmişdir. Azərbaycanlı çağırışçılardan və könüllülərdən ibarət 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı atıcı diviziyalar böyük qəhrəmanlıq nümunəsi göstərmişdilər.

402-ci atıcı diviziya Naxçıvanda formalaşaraq buradan birbaşa döyüş meydanına yola salınmışdır. Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçən həmyerlilərimiz göstərdikləri qəhrəmanlıqlarla adlarını tarixə yazmışlar. Döyüşlərdə iştirak edən naxçıvanlılardan 3-ü Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüş, bir nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi, müharibə iştirakçılarından 102-si "Şöhrət" ordeninin ayrı-ayrı dərəcələri ilə, 105-i birinci və ikinci dərəcəli "Böyük Vətən müharibəsi", 315-i "Qırmızı Ulduz", 29-u "Qırmızı Bayraq" ordenləri ilə təltif olunmuşlar.

Azərbaycan xalqı faşizmlə mübarizəyə bütün imkanlarını səfərbər etmişdir. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80, mühərrik yağlarının isə 90 faizi Azərbaycanın payına düşmüşdür.

***"Hər bir gənc veteranlarımızın qəhrəmanlıq nümunələrindən, əmək fədakarlığından özü üçün nümunə götürməlidir. O qəhrəmanlıq nümunələri bugünkü nəslimiz, gələcək nəsillər üçün örnək, məktəb, təcrübə mənbəyi olmalıdır"***, – deyən ulu öndər Heydər Əliyev 1941-1945-ci illər veteranlarına daim qayğı göstərmiş, Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 May ölkəmizdə Qələbə Günü kimi rəsmiləşdirilərək dövlət bayramları sırasına daxil edilmiş, müharibə veteranlarının imtiyazları və statusları bərpa olunmuşdur. Bu gün ölkəmizdə müharibə veteranlarına dövlət qayğısı sosial siyasətin əsas istiqamətlərindəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə və muxtar respublikada müharibə iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərilir.

Qələbə bayramı ərəfəsində ölkə Prezidenti cənab İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması ənənə halını almışdır. Ölkə Prezidentinin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2020-ci il 24 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan vətəndaşların xüsusi diqqət və qayğı ilə əhatə olunduqlarının daha bir ifadəsidir. Həmçinin dövlət başçısının 2020-ci il mayın 1-də imzaladığı Sərəncamla 1941-1945-ci illər müharibəsində döyüş əməliyyatlarında iştirak etmiş, faşist işğalçılarına qarşı gizli mübarizə aparmış, arxa cəbhədə çalışmış və həmin dövrdə SSRİ Silahlı Qüvvələrində xidmət etmiş şəxslər "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunmuşlar.

Naxçıvan Muxtar Respublikasında da müharibə iştirakçılarına xüsusi qayğı ilə yanaşılır. Hər il muxtar respublikada faşizm üzərində Qələbə Günü qeyd olunur. Müharibə veteranlarının sosial müdafiəsi gücləndirilir, onlar sanatoriya və kurortlara göndərilir, minik avtomobilləri və mənzillərlə təmin olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Vətən qarşısında xidməti olanlara avtomobillər təqdim olunub





Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Vətən müdafiəçiləri cəmiyyətimizdə ən hörmətli adamlardır. Bu adamlara qayğı göstərmək, onların problemlərini həll etmək hamının borcudur".***

Bu gün Naxçıvan Muxtar Respublikasında Vətənimizin müdafiəsi zamanı sağlamlıqlarını itirən şəxslər hərtərəfli qayğı ilə əhatə olunublar. Onların sağlamlıqlarının bərpası, mənzil-məişət şəraitinin yaxşılaşdırılması və minik avtomobilləri ilə təmin olunması diqqət mərkəzində saxlanılır.

Ardı 2-ci səhifədə

Mayın 9-da – faşizm üzərində Qələbənin 75-ci ildönümündə Naxçıvan şəhərində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda və hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış 5 nəfərə, eləcə də Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında sağlamlığını itirmiş 1 nəfərə "NAZ Lifan-330" markalı minik avtomobilləri təqdim edilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək demişdir ki, muxtar respublikada xüsusi qayğıya ehtiyacı olan şəxslərə sosial xidmətlərin göstərilməsi, onların təhsili, məşğulluğu və yaradıcılıq potensiallarının aşkar edilməsi daim diqqət mərkəzində saxlanılır. Cari ildə müvafiq kateqoriyalı 179 nəfərin bərpa mərkəzlərində müalicələri təşkil edilmiş, 108 şəxsə müalicə müəssisələrinə göndəriş, 110 nəfərə texniki reabilitasiya vasitələri verilmiş, 120 nəfər protez-ortopedik məmulatlarla təmin edilmişdir. Sosial qayğıya ehtiyacı olan 334 nəfərə evlərində, 6 nəfərə Ahıllar Evində sosial-məişət xidməti göstərilmişdir. 6 ailəyə fərdi yaşayış evləri və mənzillər, 11 nəfərə minik avtomobilləri təqdim edilmişdir. Nicat Babayev sağlamlıq imkanları məhdud şəxslərə göstərilən qayğıya görə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov avtomobillərin 9 May – faşizm üzərində Qələbə Günündə təqdim olunduğunu bildirmiş, qələbənin 75 illiyi münasibətilə müharibə veteranlarını, həlak olmuş şəxslərin ailələrini, bütün muxtar respublika sakinlərini və tədbir iştirakçılarını təbrik edərək demişdir: Bu gün avtomobillər həm də ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü ərəfəsində təqdim olunur. 10 may tarixi Azərbaycan xalqının siyasi taleyində mühüm xidmətləri olmuş dahi şəxsiyyətin doğum günüdür. Ümummilli liderimizin həyat və fəaliyyəti dövlətə və xalqa xidmətdən ibarət olmuşdur. Hansı vəzifədə işləməsindən asılı olmayaraq, ulu öndərimiz hər zaman Azərbaycan xalqının rifahını, Azərbaycan dövlətinin inkişafını düşünmüş, bu yolda fəaliyyət göstərmişdir.

Ali Məclisin Sədri demişdir: Ümummilli liderimizin siyasi fəaliyyətində dövlət-xalq birliyi əsas yer tutur. Bu gün ulu öndərimizin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə dövlət-xalq birliyi daha da möhkəmləndirilir. Bunun nəticəsi olaraq xalq və Vətən qarşısında xidməti olanların əməyi layiqincə qiymətləndirilir. Bu gün avtomobillərin təqdim olunması da xidməti vəzifələrini layiqincə yerinə yetirən şəxslərə dövlətimiz tərəfindən verilən qiymətdir. Dövlətinə sədaqətli olan insanların əməyinin qiymətləndirilməsi isə digər vətəndaşlarımız üçün nümunədir.

Ali Məclisin Sədri Vətən qarşısında borclarını layiqincə yerinə yetirdiklərinə görə avtomobillə təmin olunanlara təşəkkürünü bildirmiş və avtomobillərin açarlarını təqdim etmişdir.

Avtomobillə təmin olunanlar adından minnətdarlıq edən Qasım Məmmədov demişdir: "Muxtar respublikada insanların həyat səviyyəsi günbəgün yaxşılaşır. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan sosial siyasətin bəhrəsini gündəlik həyatımızda hiss edirik. Vətənimizin azadlığı və ərazi bütövlüyünün qorunması zamanı sağlamlığını itirənlərə, şəhid ailələrinə dövlətimiz tərəfindən hər zaman yüksək diqqət və qayğı göstərilir. Qürurla xatırlayıram ki, 21 il bundan əvvəl Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev mənə "İgidliyə görə" medalını təqdim etmişdir. Bu gün isə ümummilli liderimizin anadan olmasının 97-ci ildönümü ərəfəsində avtomobillə təmin olunuram. İkiqat qürur və sevinc içindəyəm".

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Müstəqil Azərbaycanın memarı

***Tarix dəfələrlə sübut edib ki, bir xalqın mövcudiyyəti onun həmrəyliyindən və bu həmrəyliyi təmin edən liderlərin dövrün məsuliyyətini öz üzərlərinə götürərək tarixi yenidən yazmaq bacarığından irəli gəlir. Bu mənada, Azərbaycan xalqı xoşbəxt xalqlardandır ki, Heydər Əliyev kimi dahi şəxsiyyət Azərbaycanı tarixin ən çətin sınaqlarından çıxarmaqla onun mövcudluğunu əbədi etmişdir. Təsadüfi deyil ki, fərqli ictimai-siyasi dövrlərdə belə, mənsub olduğu xalqın xoşbəxtliyi üçün yorulmadan çalışan ulu öndər Heydər Əliyevin adı dünyanın axarını dəyişən böyük tarixi şəxsiyyətlərlə bir sırada çəkilir. Onun qeyri-adi siyasi bacarığı və böyüklüyü hər kəs tərəfindən etiraf olunur.***

1923-cü il mayın 10-da Naxçıvan şəhərində sadə və zəhmətkeş ailədə dünyaya göz açan, gənc yaşlarından zəkası və fitri istedadı ilə seçilən, təhlükəsizlik orqanlarında çalışmaqla dövlət idarəçiliyi sirlərinə dərindən yiyələnən ulu öndər Heydər Əliyev deyirdi: ***"Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda, yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi, bəlkə də, bir o qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni, bütövlükdə, Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır".***

Bu gün müstəqil Azərbaycan dövlətinin qazandığı hər bir uğurun təməlində ümummilli liderimizin müəllifi olduğu inkişaf strategiyası dayanır. Bu strategiyanın tarixi ulu öndərimizin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən başlayır. Bu dövrədək zəngin iqtisadi potensialının, təbii sərvətlərinin olmasına baxmayaraq, ölkəmiz ittifaq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerləri tuturdu. Görkəmli dövlət xadiminin respublikamızda rəhbərliyə gəlməsi Azərbaycanda digər sahələrlə yanaşı, iqtisadi inkişafa da yol açmış və ölkəmiz qısa zamanda ittifaq tərkibində o zaman üçün müasir iqtisadiyyata malik respublikaya çevrilmişdi. O dövrdə dahi rəhbər sənaye və kənd təsərrüfatının inkişafına yönəlmiş çox mühüm qərarlar qəbul etmiş, 14 il ərzində 1048 sənaye obyekti tikilmişdir.

Görkəmli dövlət xadiminin milli kadrların formalaşdırılması istiqamətində gördüyü işlər də xalqımızın gələcək müstəqilliyinə hədəflənmiş, milli özünüdərkin əsası qoyulmuşdur. Bu dövrdə təkcə iqtisadi sahəyə deyil, elm, təhsil, səhiyyə və mədəniyyət sahələrinə də böyük qayğı göstərilmişdir. Xüsusilə gələcək müstəqil Azərbaycanın əsas dayağına və qarantına çevriləcək milli ordu quruculuğu siyasəti ön planda olmuşdur. Təsadüfi deyil ki, Azərbaycanda siyasi rəhbərliyə gəlişindən çox qısa bir dövr keçməsinə baxmayaraq, ulu öndərin böyük siyasi iradəsi hesabına respublikamızda ilk hərbi təmayüllü məktəb – Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradılmışdır. Həmin hərbi məktəbin yaradılması ilə milli hərbi kadrların formalaşdırılması yeni mərhələyə qədəm qoymuşdur. Bu gün ölkəmizdə hərbi uğurların təməli də məhz 50 il əvvəl atılmış bu cəsarətli addıma əsaslanır.

Müstəqil dövlətin yaradılması üçün müstəqil iqtisadiyyatın qurulması və kadr hazırlığı kifayət deyil. Bunun üçün milli şüuru oyatmaq lazımdır. Ötən əsrin 70-ci illərindən başlanan milli-mədəni dirçəliş, özünüdərk, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı dövlətçilik ideyasının milli azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsinə zəmin yaratmışdır. Azərbaycan dilinin dövlət dili kimi təsdiq olunması, milli dəyərlərimizin və adət-ənənələrimizin qorunub yaşadılması, tarixi-mədəni irsimizə göstərilən qayğı, soy-kökümüzə sahiblik milli özünüdərkə səbəb olmuş, milli şüurda əsaslı dəyişikliklər yaratmışdır.

Azərbaycanın və Türk dünyasının böyük oğlu Heydər Əliyev 1982-1987-ci illərdə Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək dövlət vəzifələrində fəaliyyət göstərəndə də Azərbaycanın mənafeyini hər zaman üstün tutmuşdur. Unutmaq olmaz ki, dahi şəxsiyyət SSRİ rəhbərliyində təmsil olunan zaman erməni şovinistləri respublikamıza qarşı əsassız ərazi iddialarını irəli sürməyə cəsarət edə bilməmişdilər. Buna görədir ki, böyük təzyiqlər nəticəsində 1987-ci ildə ulu öndərimiz siyasi hakimiyyətdən uzaqlaşmış, bundan 15 gün sonra Azərbaycanın Dağlıq Qarabağ ərazisinin müstəqilliyi məsələsi gündəliyə çıxarılmışdı. Erməni millətçiləri və onların Moskvadakı havadarlarının Azərbaycana qarşı təzyiqləri başlamış, bu təzyiqlərin tərkib hissəsi kimi 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə paytaxt Bakı şəhərinə hərbi qoşun qüvvələri yeridilmişdir. Həmin vaxt böyük siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan Nümayəndəliyində ulu öndər Heydər Əliyev təcavüzkarları cəsarətlə ifşa etmiş, baş vermiş hadisənin hərbi cinayət olduğunu bütün dünyaya çatdırmışdır. Bu bəyanatdan sonra görkəmli dövlət xadiminə qarşı böyük təzyiqlər başlamış, dahi şəxsiyyət 1990-cı il iyul ayının 20-də Bakıya, iki gün sonra isə doğma Naxçıvana gəlmiş, burada xalq tərəfindən böyük izdiham, sevgi və coşqu ilə qarşılanmışdır.

Görkəmli dövlət xadiminin doğulub boya-başa çatdığı Naxçıvana qayıdışı tarixi zərurət idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bununla bağlı demişdir: ***"Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə ancaq ulu öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu... O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda o vaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz Vətəninə, doğulduğu yerə – Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu".***

Ümummilli liderin Naxçıvana gəlməsi, sözün əsl mənasında, tarixin hökmü, zərurəti idi. Çünki həmin dövrdə Naxçıvanda mürəkkəb şərait yaranmışdı. Bir tərəfdən SSRİ rəhbərliyinin Azərbaycana hərtərəfli təzyiqləri, digər tərəfdən ermənilərin ölkəmizin digər bölgələri ilə yanaşı, Naxçıvana əsassız torpaq iddiaları və bu iddiaların nəticəsi olaraq qədim diyarın blokadaya alınaraq işğal edilməsi planı vəziyyəti daha da ağırlaşdırmışdı. Məhz belə bir tarixi şəraitdə Naxçıvan məhv olmamaq üçün möcüzə gözləyirdi, hansı ki bu möcüzəni qədim yurdun insanlarına elə bu yurdun böyük oğlu Heydər Əliyev bəxş etdi. 1990-cı il sentyabrın 30-da keçirilən seçkilərdə ümummilli lider yekdilliklə Azərbaycan SSR-in və Naxçıvan MSSR-in deputatı seçildi. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ulu öndərin sədrliyi ilə keçirilən ilk sessiyasında təkcə Naxçıvan üçün deyil, ümumilikdə, ölkəmiz üçün taleyüklü qərarlar qəbul edildi. Sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı, Naxçıvan MSSR Ali Soveti Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Milli istiqlal rəmzi olan üçrəngli bayrağımız ilk dəfə bu sessiyanın tarixi qərarı ilə Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edildi, həmin bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırıldı.

Muxtar respublikanın əsl xilas və tərəqqisinin yalnız ümummilli liderimizin dühası sayəsində mümkün olduğunu çox yaxşı bilən Naxçıvan əhalisinin təkidli tələbi ilə 1991-ci ilin 3 sentyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilən görkəmli dövlət xadimi Naxçıvanı xalqımızın demokratiya və müstəqillik uğrunda mübarizə mərkəzinə çevirmişdir. Bu gün iqtidar partiyası kimi liderliyi və dünyada siyasi nüfuzunu qoruyub saxlayan Yeni Azərbaycan Partiyasının təsis edilməsi, az vaxt ərzində böyük nüfuz qazanması da ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrünün bəhrəsidir. Azərbaycanı müstəqilliyə doğru inamla aparan, siyasi müstəvidə həyata keçirilən bu tədbirlərlə yanaşı, yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğun iqtisadi model formalaşdırılırdı. Muxtar respublikanın iqtisadi problemlərinin həllinə ciddi diqqət yetirilir, blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülür, quruculuq işləri aparılırdı.

Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin təşkili ilə Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlər görülmüş, ölkəmizdə ilk dəfə Naxçıvanda nizami ordu hissələri yaradılmışdır. Ulu öndər 1992-ci ildə tarixi Moskva və Qars müqavilələrini gündəmə gətirməklə Ermənistanın təcavüzkar siyasətini, Naxçıvanın muxtariyyət statusunu, əzəli Azərbaycan torpağı kimi toxunulmazlığını beynəlxalq miqyasda bir daha təsdiqləmiş, ağır blokada şəraitində olan muxtar respublika iqtisadi böhrandan çıxarılmışdır. Məhz ulu öndərin Naxçıvandakı siyasi fəaliyyəti dövründə torpaqlarımızın erməni işğalından müdafiəsi, milli şüurun dirçəlişi, milli dövlət strukturlarının formalaşması kimi mühüm tarixi nailiyyətlər əldə olunmuş, xalqla həmrəyliyin təntənəsi öz təsdiqini tapmışdır. Bir sözlə, müstəqilliyin başlanğıc illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Azərbaycanın əsl dövlətçilik məktəbi funksiyasını həyata keçirmişdir.

Xalqımızın böyük oğlu tarixin ən çətin və məsuliyyətli anlarında Azərbaycan xalqının ruhuna nəfəs kimi qayıtmış, onun milli mövcudluğunu qoruyaraq xilaskarlıq missiyasını yerinə yetirmişdir. Taleyin hökmü ilə iki dəfə bu missiyanı üzərinə götürən ulu öndər hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, ölkəmizi böyük bəlalardan qurtarmışdır.

1993-cü il iyunun 15-də Azərbaycan xalqının təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ulu öndərimiz on il ərzində əsrlərə bərabər işlər görmüş, müstəqil Azərbaycanın xilaskarı və qurucusu kimi böyük tarixi missiyanı uğurla həyata keçirmişdir. Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi yazılan 15 iyun tarixi müstəqilliyimizin və dövlətçiliyimizin xilası gününə çevrilmişdir. Məhz Heydər Əliyev dühasının ikinci dəfə hakimiyyətə qayıdışından sonra ulu öndərin böyük xidmətləri sayəsində Azərbaycan iqtisadiyyatının inkişafı üçün mühüm əhəmiyyətə malik qlobal layihələrə imza atılmış, xarici neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalanmışdır. Qısa müddətdə ölkəmiz beynəlxalq təşkilatlarda layiqincə təmsil olunmağa başlamış, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiya qəbul edilmişdir. Bu dövrdə ordu quruculuğu sahəsində də mühüm tədbirlər həyata keçirilmiş, Azərbaycan Ordusunun maddi-texniki bazası dəfələrlə gücləndirilmiş, döyüş ruhu yüksəldilmiş, Silahlı Qüvvələrimiz dünyanın ən müasir silah-sursatları ilə təchiz olunmuşdur. Beynəlxalq aləmdə gündən-günə nüfuzu artan Azərbaycan həyata keçirdiyi qlobal layihələrlə də öz gücünü artırmış, bu gün Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə ən mühüm tranzit qovşağına çevrilmişdir. Heydər Əliyev siyasi yolunun ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan dünyada iqtisadi və siyasi sabitliyin qorunduğu, bütün sahələr üzrə davamlı inkişaf edən ölkələrdən birinə çevrilib. Azərbaycan bu siyasi kursa sadiq olmaqla bu gün beynəlxalq müstəvidə möhtəşəm nailiyyətlər ortaya qoyur. İqtisadi cəhətdən güclü, siyasi cəhətdən isə əsl müstəqil dövlətə çevrilmiş Azərbaycanın mövqeyi regional və beynəlxalq məsələlərdə mütləq nəzərə alınır. Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib. Bu, Azərbaycanın artan mövqeyinin, nüfuzunun göstəricisidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin beynəlxalq müstəvidə, eləcə də ölkə reallıqları çərçivəsində ümummilli liderin yolunu uğurla davam və inkişaf etdirməsi möhtəşəm nailiyyətlər ortaya qoymaqdadır. Neft və qeyri-neft sektorunun inkişafı, aqrar islahatların aparılması, insan amilinin yüksək dəyərləndirilməsi, elm, təhsil, mədəniyyət, səhiyyə, texnologiya kimi ən müxtəlif sahələrdə mühüm uğurların qazanılması bunu bir daha sübut edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir:

*Ardı 3-cü səhifədə*

***"Dahi öndər Heydər Əliyev Yeni Azərbaycanın bugünkü simasını və gələcək inkişaf perspektivlərini müəyyənləşdirib. Onun Azərbaycan naminə gördüyü işlər bu gün ölkəmizin milli sərhədlərini aşaraq, bütövlükdə, regionun və dünya sivilizasiyasının da tərəqqisinə xidmət edir. Xalqımızın böyük oğlu dünyanın ən nüfuzlu mükafatlarına, fəxri ad və titullarına layiq görülüb, lakin onun öz sağlığında layiq görüldüyü ən yüksək mükafat isə Azərbaycan xalqının ümummilli lideri adını qazanmasıdır. Bu da onu deməyə əsas verir ki, Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bu siyasət yaşayacaq, özü ilə birlikdə Azərbaycan xalqını da yaşadacaqdır!"***

Azərbaycanımızın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası da bu gün özünün hərtərəfli inkişaf dövrünü yaşayır. Blokada vəziyyətində olmasına baxmayaraq, qədim diyarımız yeni inkişaf nümunəsi ortaya qoyub. Heydər Əliyev ideyalarına tükənməz sədaqətin nümunəsi olan Naxçıvan bu gün bütün dövlət proqramlarının, infrastruktur layihələrinin uğurla həyata keçirilməsi sayəsində bir sıra mühüm göstəricilər üzrə iqtisadi təhlükəsizliyini təmin etmiş, mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilmişdir. Son illər rayon mərkəzlərindən ucqar dağ kəndlərinədək hər yerdə aparılan genişmiqyaslı quruculuq işləri qədim Naxçıvanın hüsnünü daha da gözəlləşdirib. Həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin edib, iqtisadiyyatın dinamik inkişafına təkan verib və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Naxçıvan Muxtar Respublikası müstəqil Azərbaycanın yenitipli məktəblərə, səhiyyə ocaqlarına, yeni texnologiya ilə təchiz olunmuş işlək sənaye müəssisələrinə, hər qarış torpağı əkilib-becərilən kənd təsərrüfatına malik inkişaf etmiş qabaqcıl diyarına çevrilib. Ötən dövrdə ərzaq və enerji təhlükəsizliyinin təmin olunması sahəsində böyük işlər görülüb. Kənd təsərrüfatı və xidmət sahələrində müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələrinin fəaliyyətə başlaması, aqrar sənayenin inkişafının dəstəklənməsi Naxçıvanın ixrac potensialını artırmış, 2020-ci il muxtar respublikada "İxrac ili" elan edilmişdir. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafının nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci ildə həm İslam Mədəniyyətinin Paytaxtı, həm də ölkəmizin Gənclər Paytaxtı seçilib, Azərbaycan Prezidenti cənab İlham Əliyevin ilk sədri olduğu "Caspian European Club"un 2017-2018-ci illər üçün Azərbaycanın iqtisadi regionlarının 18 parametr üzrə hazırlanmış illik investisiya reytinqində isə Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq lider olub. Enerji təhlükəsizliyi də daim diqqət mərkəzində saxlanılmış, ötən dövrdə su və günəş elektrik stansiyalarının tikintisi davam etdirilmiş, 2019-cu ildə muxtar respublikada istehsal olunmuş elektrik enerjisinin 60 faizə yaxınını alternativ və bərpa olunan enerji təşkil etmişdir. Görülən işlərin nəticəsidir ki, muxtar respublikanın enerji təhlükəsizliyi sahəsində əldə etdiyi bu uğur Naxçıvanı enerji idxal edən regiondan enerji ixrac edən regiona çevirmişdir.

Naxçıvanın müdafiə təhlükəsizliyi sahəsində atılan ən mühüm addımlardan biri, sözsüz ki, ordu quruculuğudur. Ötən illər ərzində muxtar respublikada Əlahiddə Ümumqoşun Ordunun yaradılması və ordumuzun maddi-texniki təminatı ilə bağlı görülən işlər, hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar, həmçinin muxtar respublikamızdakı hərbi birləşmə və hissələrdə xidmət üçün yüksək səviyyəli şəraitin yaradılması ordumuzun gücünü dəfələrlə artırıb. 2018-ci ildə Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyəti olan yüksəkliklərin işğaldan azad edilməsi isə ordumuzun qüdrətinin daha bir ifadəsinə çevrilib.

*Bu gün ölkəmizin və onun Naxçıvan Muxtar Respublikasının inkişafı, tərəqqisi, əldə olunan mövcud sabitlik və yüksək rifah ulu öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsidir. Bu yol xalqımızı dünən və bu gün olduğu kimi, gələcəkdə də daha xoşbəxt günlərə qovuşduracaqdır. Nə qədər ki müstəqil Azərbaycan dövləti və xalqı var, ulu öndər Heydər Əliyev də var olacaq və yaşayacaqdır.*

**"Şərq qapısı"**

***Ötən əsrin 70-80-ci illərində əldə olunmuş əsas nailiyyətlərdən biri də ondan ibarətdir ki, Naxçıvan aqrar məkandan sənaye diyarına çevrilmiş və bu uğurun əsasında ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi iqtisadi siyasət dayanmışdır.***



# Naxçıvan Muxtar Respublikasının möhkəm təmələ əsaslanan sənayesi davamlı inkişafdadır

Muxtar respublikaya xüsusi qayğı göstərən görkəmli dövlət xadimi ölkəmizdə ilk siyasi hakimiyyəti dövründə diqqətdən kənarda qalan və çətin həyat problemləri yaşayan qədim diyarın inkişafını təmin etmək üçün ciddi fəalliyyət göstərmişdir. Onun təşəbbüsü və rəhbərliyi ilə doqquzuncu beşillikdə Naxçıvan MSSR-in xalq təsərrüfatının inkişaf planı işlənib hazırlanmış, bu planın həyata keçirilməsi ilə qısa müddət ərzində iqtisadi və sosial inkişafda yüksək nəticələr əldə edilmiş, muxtar respublikada sənayenin inkişafı yeni vüsət almışdır. Bu dövrdə Naxçıvanda istehsal edilən daşduz, sink, qurğuşun, molibden, mineral sular, ipək xammalı, mərmər, şərab, mürəbbə konservləri ölkə sənayesində xüsusi yer tutmaqla xarici ölkələrə də göndərilmişdi. 1970-1985-ci illərdə iqtisadiyyata əsaslı vəsait qoyuluşunun artırılması ilə Naxçıvan Tütün-Fermentasiya, Alüminium Qablar Zavodu, Dəmir-Beton Məmulatı zavodunun birinci növbəsi, Sirab mineral sular, iki şərab zavodu istifadəyə verilmiş, elektrotexnika və avtotəmir zavodlarının təşkili, Ordubad baramaaçan və Naxçıvan tikiş fabrikləri yenidən qurulmuşdur. Sənaye müəssisələrinin yaradılması muxtar respublikada elektrik enerjisi istehsalını da zəruri edirdi. Ulu öndərin uzaqgörən siyasətinin nəticəsi olaraq 1970-ci illərdə İranla birlikdə gücü 21 milyon kilovatsaat olan Araz Su Elektrik Stansiyası tikilib istifadəyə verildi ki, muxtar respublikanın blokadada olduğu çətin günlərində Araz SES Naxçıvan əhalisinə çox böyük dayaq oldu.

Maşınqayırma və metal emalı sahəsində elektrotexnika məhsulları, təsərrüfat və məişət təyinatlı metal qablar, istehsal təyinatlı metal məhsullar və sair kimi muxtar respublika üçün vacib olan bir sıra sənaye məhsulları istehsal edilirdi. Qeyd etmək lazımdır ki, bu gün Naxçıvanın tikinti materialları istehsalı mərkəzinə çevrilməsi o dövrdə, üzlük plitələrin buraxılması üzrə yeni müasir müəssisələrin yaradılması və istehsalın daha da inkişaf etdirilməsi ilə bağlı qərarların qəbul olunması nəticəsində baş tutmuş və beləliklə, dahi rəhbər Heydər Əliyevin ideyaları gerçəkləşmişdir.

Azərbaycan Respublikasında 1990-cı illərdə yaranmış qarışıqlıq dövründə yenə də Naxçıvanın tənəzzülünün qarşısının alınması ulu öndərin Naxçıvana qayıtması nəticəsində baş tutdu. 1993-cü ildə ümummilli liderimizin yenidən hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi, muxtar respublikanın sənayesində də əsaslı islahatlar aparılmış və bunun nəticəsində sənaye məhsulu istehsal edən dövlət və qeyri-dövlət bölmələrində yaradılmış müəssisələr hesabına ümumi sənaye məhsulunun həcmində hər il dinamik artım olmuşdur.

Sonrakı dövrdə – 1995-ci ildən etibarən muxtar respublika rəhbəri tərəfindən bu siyasi kursun qətiyyətlə davam etdirilməsi nəticəsində sənayenin inkişafı daha da sürətlənmiş və ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın hər yerində, o cümlədən də Naxçıvanda iqtisadiyyatın gücləndirilməsi istiqamətində dövlət siyasəti davam etdirilmişdir. Muxtar respublikada gedən sənayeləşmə prosesi məşğulluq probleminin həllinə kömək etmiş, mineral-xammal resurslarına əsaslanan sənaye sahələrinin, kənd təsərrüfatı xammalının emalına xidmət edən müəssisələrin yaradılması bu sahənin inkişafına səbəb olmuş, əhalinin sənaye məhsullarına olan tələbatı ödənilmiş, regionlararası və regiondaxili, o cümlədən xarici iqtisadi əlaqələr təkmilləşdirilmiş və son nəticədə, əhalinin həyat səviyyəsi yüksəldilmişdir.



1995-ci ildən başlayaraq muxtar respublika iqtisadiyyatının əsas sahələrinin, o cümlədən sənayenin, tikintinin, kənd təsərrüfatının, nəqliyyat və rabitənin inkişafı istiqamətində aparılan məqsədyönlü siyasət məhsul istehsalının və göstərilmiş xidmətlərin həcminin artımında, əhalinin həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynamışdır.

1995-ci il sentyabrın 29-da "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"nın qəbul edilməsi Azərbaycanda aparılan iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri olmaqla muxtar respublika iqtisadiyyatına öz müsbət təsirini göstərmişdir. 1995-2001-ci illərdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində muxtar respublika iqtisadiyyatında yaranmış durğunluq tamamilə aradan qaldırılmış, 2001-ci ildə sənayenin ümumi məhsulunun həcmi 1995-ci illə müqayisədə 1,7 dəfə artmışdır. Diyarımızın blokada şəraitində olmasına, xammalın və materialın daşınması sahəsində çətinliklərə baxmayaraq, alt trikotaj, tikiş və mebel fabriklərinin, emal müəssisələrinin, elektrotexnika zavodunun fəaliyyəti bərpa edilmiş, Badamlı-Vayxır-Naxçıvan mineral su kəmərinin çəkilməsi ilə mineral su istehsalı artmışdır. Şüşə qablar zavodunda energetika sənayesi üçün keramik izolyatorların, dəmir-beton zavodunda beton elektrik dirəklərinin, yol kənarına düzmək üçün beton plitələrin və digər məmulatların istehsalına başlanılmışdır.

Ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi islahatların davamı kimi muxtar respublikamızda da regionların tarazlı inkişafı ilə bağlı üç böyük dövlət proqramının reallaşdırılması sayəsində ciddi iqtisadi uğurlara nail olunmuş, sürətli inkişaf üçün zəngin potensial formalaşmış, muxtar respublika iqtisadiyyatında həyata keçirilən tarazlaşdırılmış iqtisadi siyasət öz bəhrəsini vermişdir. Əldə olunmuş uğurların davamlılığının qorunub saxlanılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir.





Ümumi daxili məhsulun tərkibində ilk yerə sahib olan sənaye sahəsində aparılan uğurlu islahatların nəticəsində bu sahədə sürətli inkişafa nail olunmuş, muxtar respublikada sənayeləşmə prosesinə start verilmişdir. Təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsi, sənaye müəssisələrinin bərpa olunması və yenidən qurulması, müəssisələrin dünya standartlarına uyğun texnologiyalarla təmin olunması, səmərəli kredit mexanizminin qurulması, yerli və xarici bazarlara çıxış imkanlarının sadələşdirilməsi artımla müşahidə olunmuş, 2019-cu ildə 1015,0 milyon manatlıq məhsul istehsal edilmişdir ki, bu da 2018-ci illə müqayisədə 1,4 faiz çoxdur.

Sənayedə istehsalın həcminin artması nəticəsində 2019-cu ildə 323 milyon 309 min ABŞ dolları dəyərində sənaye məhsulları ixrac olunmuşdur. Ölkə Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanına əsasən Şərur rayonunda Şərur Sənaye Məhəlləsinin yaradılması və bu məqsədlə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə ilkin olaraq 5 milyon manat vəsaitin ayrılması sənayenin inkişafına yeni imkanlar yaradacaqdır. Altı istehsalat korpusundan ibarət nəzərdə tutulmuş sənaye məhəlləsində ilkin olaraq bitki yağı, ofis ləvazimatları, kağız-torba və corab istehsalı sahələrinin yaradılması nəzərdə tutulub ki, bu da həmin məhsulların idxalının azalmasında mühüm rol oynamaqla, ixracın və rəqabət qabiliyyətinin artırılması, məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Sənaye məhəlləsi özəl sektorun inkişafına daha böyük dövlət dəstəyi olmaqla burada əlverişli infrastrukturun təşkil edilməsi, cəlbedici güzəştlər mexanizmi, müvafiq prosedurların maksimal sadələşdirilməsi və xarici investisiyaların cəlb edilməsi üçün şərait yaradacaqdır.

Enerji sektoru sənayenin inkişafına təkan verən əsas mexanizmlərdən biridir. Muxtar respublikanın günəşli və küləkli günlərinin miqdarına görə bərpa olunan enerji mənbələrinin potensialı baxımından əhəmiyyətli mövqeyə malik olduğu dəyərləndirilərək Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilib. Hazırda muxtar respublikanın enerji ehtiyatlarına olan tələbatının 60 faizi məhz bu stansiyanın istehsal etdiyi enerji hesabına ödənilir. Külək enerjisinin əldə olunması istiqamətində isə Culfa rayonu ərazisində işlər davam etdirilməkdədir. Muxtar respublikada elektrik enerjisi istehsalı müəssisələrinin sayının 1-dən 8-ə çatdırılması enerji təhlükəsizliyini təmin etmiş, Naxçıvan enerji idxalatçısından ixracatçısına çevrilmişdir ki, bu da sənayeləşmə siyasətinin genişlənməsinə yollar açmışdır.

Kənd təsərrüfatı məhsulunun istehsal həcminin dinamik şəkildə yüksəlməsi, əhalinin əsas qida məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi, dövlət ehtiyatlarının yaradılması nəticəsində muxtar respublikada ərzaq təhlükəsizliyi təmin olunmuşdur.

Ümummilli liderin iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirilməsinin nəticəsidir ki, bu gün Naxçıvanda ərzaq və enerji təhlükəsizliyinin təminatına nail olunmuşdur. Sənayenin bu cür yüksək sürətlə inkişaf etməsinə muxtar respublikanın malik olduğu zəngin təbii ehtiyatlar və dövlətin həyata keçirdiyi iqtisadi siyasət geniş baza yaratmışdır. Dövlətin iqtisadi siyasətinin əsas istiqamətləri isə yeni sənaye sahələrinin yaradılması ilə keyfiyyətli məhsul istehsal etmək, müasir texnologiyalardan istifadə və məhsul çeşidlərini yeniləməklə onun rəqabət qabiliyyətini artırmaq, həm daxili bazara, həm də xarici bazara inteqrasiyanı təşkil etməkdən ibarət olmuşdur. Muxtar respublikada həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələri olaraq "Caspian European Club" tərəfindən müəyyən edilən investisiya reytinqində Naxçıvan 2017 və 2018-ci illərdə ən yüksək ümumi bal toplayaraq qalib olmuşdur.

***Bütün bu göstəricilər sənaye sahəsində olan iqtisadi tənəzzül dövrü ilə iqtisadi yüksəliş arasındakı fərqi və ulu öndərin bu istiqamətdə müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının düzgünlüyünü bir daha sübut edir.***

**Mehriban İMANOVA**
**Naxçıvan Dövlət Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru**

# Heydər Əliyev siyasətinin bəhrələri

## Müasir NAXÇIVAN





Şərur rayonu



Babək rayonu, Kültəpə kəndi



Heydərabad qəsəbəsi



Ordubad rayonu, Vənənd kəndi



Culfa rayonu, Saltaq kəndi



Şahbuz rayonu, Türkeş kəndi



Kəngərli rayonu, Böyükdüz kəndi



ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 346